

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 188 (21.849)

*5 oktyabr 2017-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Avropa İttifaqının Brüsseldə akkreditə olunmuş səfirlərinin daxil olduğu Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin nümayəndə heyətini qəbul edib.

Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Prezident İlham Əliyev Ermənistan tərəfindən Azərbaycan torpaqlarının bir hissəsinin işğal olunduğunu, həmin ərazilərdə etnik təmizləmə siyasətinin aparıldığını, Xocalı soyqırımının törədildiyini bildirib.

Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunan dövlətimizin başçısı quruma üzv ölkələrlə əməkdaşlığın yüksək səviyyədə olduğunu, iqtisadi əməkdaşlığın inkişaf etdiyini diqqətə çatdırıb.

Sonra Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin sədri Valter Stivens, Avropa İttifaqının Brüsseldə akkreditə olunmuş Fransa, Bolqarıstan və Almaniyadan olan səfirləri çıxış ediblər.

* * *

Dövlətimizin başçısı oktyabrın 4-də İtaliyanın "Leonardo" şirkətinin baş icraçı direktoru Alessandro Profumonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

## Naxçıvan Şəhər İcra Hakimiyyətinin tabeliyində "Yaşıl Bağ" publik hüquqi şəxsin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Şəhər İcra Hakimiyyətinin tabeliyində "Yaşıl Bağ" publik hüquqi şəxsi yaradılsın.
2. Naxçıvan Şəhər İcra Hakimiyyəti "Yaşıl Bağ" publik hüquqi şəxsin nizamnaməsini təsdiq etsin və fəaliyyətinin qurulması üçün zəruri tədbirlər görsün.
3. Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin dövlət qeydiyyatına alınmasını təmin etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 4 oktyabr 2017-ci il*

## "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında ədliyyə orqanlarında səmərəli fəaliyyətlərinə görə:

Allahyarov Elnur İmamverdi oğlu

Əliyev Qoşqar Qurban oğlu

Əsgərov Ramin Ağaverdi oğlu

Məmmədov Səfər Məhərrəm oğlu

Mirzəyev Təhmin Hüseyn oğlu

Rüstəmov Şirin Vahid oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 4 oktyabr 2017-ci il*

## *"Naxçıvanda türk-islam mədəniyyəti abidələri"* mövzusunda açıq dərs keçilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində "Naxçıvanda türk-islam mədəniyyəti abidələri" mövzusunda açıq dərs keçilib. Açıq dərsdə Naxçıvan Müəllimlər İnstitutunun bir qrup tələbəsi iştirak edib.*

Tədbirdə mərkəzin elmi katibi Emin Məmmədov məruzə edərək Naxçıvanda yerləşən türk-islam mədəniyyəti abidələri haqda tədbir iştirakçılarına ətraflı məlumat verib.

Bildirilib ki, Naxçıvan antik və orta əsrlər dövrlərinə aid mədəniyyət nümunələri və tarixi abidələrlə – qədim yaşayış yerləri, şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir. Azərbaycan türkləri İslam dinini qəbul edənə qədər Naxçıvanda böyük mədəniyyət və özünəməxsus adət-ənənələr sistemi yaradıblar. İslam dininin qəbulundan sonra isə Naxçıvan memarları İslam memarlıq ənənələrindən də bəhrələnib, bir-birindən dəyərli türk-islam mədəniyyəti nümunələri ilə tarix və mədəniyyətimizi daha da zənginləşdiriblər. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyib: ***"Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır".***

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamına uyğun olaraq son illər muxtar respublikada 1200-dən çox dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidə qeydə alınaraq pasportlaşdırılıb. Bu abidələrdən 70-ə yaxını əvvəlki görkəmi saxlanılmaqla bərpa olunub. Möminə xatın və Gülüstan türbələrinin, Xanəgah Memarlıq Kompleksinin, Came məscidinin, Şərq hamamının, Zaviyə-Mədrəsə binasının, Xan sarayının, imamzadələrin və buzxanaların, Ordubaddakı Qeysəriyyə abidəsinin tarixi görkəmləri özünə qaytarılıb. Hazırda türk-islam mədəniyyətinin yadigarlarından olan Qarabağlar Türbə Kompleksində, Yengicə hamamında və Nehrəm İmamzadəsində bərpa işləri aparılır.

Sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

✍ **Nail ƏSGƏROV**

***Davamlı inkişafın təmin edilməsində təkcə iqtisadi artım deyil, təbii və insan ehtiyatlarından səmərəli istifadə, məşğulluq sisteminin inkişafı nəticəsində işsizlik və yoxsulluq səviyyəsinin aradan qaldırılması kimi sosial məsələlər də vacib şərt hesab olunur.***

## Dövlət proqramının uğurlu icrası əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə öz töhfəsini verib

### *Kəngərli rayonunun timsalında da bunu görmək olar*

İnsan fəaliyyətinin bütün sahələrində təzahür edən məşğulluq, bütövlükdə, cəmiyyətin mövcudluğunun maddi-mənəvi əsası, səmərəli iqtisadi fəaliyyətin nizamlanması üçün mühüm amildir. İnsan əməyi olmadan istehsal prosesini həyata keçirmək mümkün deyil. Ona görə də müasir iqtisadi şəraitdə dövlətimizin makroiqtisadi siyasətinin əsas məqsədlərindən biri əmək qabiliyyətli əhalinin məşğulluğunu yüksək səviyyədə təmin etməkdən ibarətdir.

Sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsini yaşayan Naxçıvan Muxtar Respublikasında formalaşdırılmış möhkəm iqtisadi əsaslar fonunda əhalinin maddi rifah halının davamlı olaraq yüksəlməsi, insanların etibarlı sosial müdafiəsinin təşkili mühüm əhəmiyyət daşıyır. Regionda sosial-iqtisadi tərəqqi prosesində qazanılan nailiyyətlərin miqyasının ildən-ilə genişlənməsi və dərinləşməsi əhalinin bütün təbəqələrinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bərabər, bu istiqamətdə mümkün zəruri tədbirlərin uğurla reallaşmasına da yeni imkanlar açır. Sosial-iqtisadi problemlərin həlli, yoxsulluğun azaldılması, işgüzar fəallığın yüksəldilməsi, habelə məşğulluğun artırılması istiqamətində muxtar respublikada son illər ərzində uğurlu addımlar atılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilən və muxtar respublikanın sosial-iqtisadi inkişaf istiqamətlərini özündə əks etdirən dövlət proqramlarından irəli gələn vəzifələrin həyata keçirilməsi Naxçıvanın davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulması, məşğulluğun təmin edilməsi üçün geniş imkanlar açıb.

Məşğulluq strategiyasının həyata keçirilməsi, eyni zamanda əhalinin məşğulluğunun artırılması üzrə dövlət proqramlarının uğurlu icrası muxtar respublikada işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaradıb. Belə ki, təkcə 2016-cı ildə Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana maşinisti, traktorçu-maşınçı, xalçaçı, aşpaz köməkçisi peşələri və digər peşələr olmaqla, ümumilikdə, 413 nəfər peşə kurslarına, 93 nəfər isə ixtisasartırma kurslarına cəlb edilib. Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində 12 məhkum qazanxana maşinisti, 12 məhkum bərbər, 10 məhkum isə daş üzərində oyma peşələri üzrə kurslara cəlb olunub. Bundan əlavə, Təhsil Nazirliyinin tabeliyindəki peşə-ixtisas təhsili müəssisələrində 2 min 956 gənc müxtəlif peşələrə yiyələnib.

Muxtar respublikamızın digər bölgələri kimi, Kəngərli rayonunda həyata keçirilən məşğulluq tədbirləri də öz əhəmiyyəti ilə seçilir. Bu sahədə görülən işlər işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaradıb, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində 2016-cı ildə rayonda 178 yeni iş yeri yaradılıb ki, bunun da 174-ü və ya 97,8 faizi daimi iş yeridir. Ötən il rayonda 282 nəfər işaxtaran vətəndaşdan 264 nəfəri işlə təmin olunub. 27 nəfər peşə hazırlığına cəlb olunub, 22 nəfər ictimai işlərə göndərilib. 2016-cı ildə rayonda keçirilən əmək yarmarkalarında 53 şəxsə göndəriş verilib, 50 nəfər işlə təmin olunub. Naxçıvan şəhərində təhsil və səhiyyə işçiləri üçün keçirilən yarmarkalarda rayon sakinlərindən 47 nəfəri Kəngərli rayonunun təhsil və səhiyyə müəssisələrində daimi işlə təmin edilib.

Rayon Məşğulluq Mərkəzindən aldığımız məlumata görə, həyata keçirilən məşğulluq tədbirləri bu ilin ötən dövründə də diqqət mərkəzində saxlanılıb. Belə ki, cari ilin ilk doqquz ayı ərzində rayon üzrə 223 nəfər işaxtaran vətəndaş qeydə alınıb. Bu günədək 218 nəfər işlə təmin edilib. Onlardan 92 nəfəri qadınlar olub. İşlə təmin olunan vətəndaşlardan 100 nəfərini 16-29 yaş arası gənclər, o cümlədən 41 nəfərini alitəhsilli, 27 nəfərini orta ixtisas təhsilli, 124 nəfərini orta təhsilli vətəndaşlar, 26 nəfərini isə peşə ixtisası məktəblərinin məzunları təşkil edib. Eyni zamanda işlə təmin edilən peşə ixtisası məzunlarından 19 nəfəri qadınlar olub. Bundan əlavə, həmin dövrdə 2 nəfər ictimai işə cəlb olunub, 20 nəfər isə peşə təlimi kurslarına göndərilib. Onlardan 15 nəfərini 16-29 yaş arası gənclər, o cümlədən 11 nəfərini qadınlar təşkil edib. Peşə təlimi kursunu bitirən məzunların da işlə təmin olunması diqqət mərkəzində saxlanılıb. Belə ki, məzunlardan 14 nəfəri işlə təmin edilib.

Sosial-iqtisadi inkişaf cəmiyyətin potensial istehsal imkanlarının yüksəlməsinə müsbət təsir göstərməklə həyat tərzini, yaşayış imkanlarını yaxşılaşdırır və məşğulluğun artırılması ilə nəticələnir. Bu baxımdan "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi cari ildə muxtar respublikamızda, həmçinin Kəngərli rayonunda məşğulluğun yüksəlməsinə də öz layiqli töhfəsini verəcəkdir.

✍ **Səbuhi HƏSƏNOV**

İcmal

# Elmi əsaslara söykənən sosial-iqtisadi inkişaf strategiyası muxtar respublikada yeni-yeni uğurların əldə edilməsinə zəmin yaradır

## *Ötən ayın nəticələri bunu bir daha təsdiq edir*

***Müasir dövrdə elm iqtisadi tərəqqinin və sosial inkişafın əsas təminatçı sferalarından biri kimi çıxış edir. Dünya praktikası isə həm də bunu sübut edir ki, intellektual fəaliyyətin məhsulu olan yüksək texnologiyaların tətbiqi yeni-yeni inkişaf istiqamətlərini müəyyənləşdirir, nailiyyətlərin davamlılığını təmin edir. Bu mənada, elmi-tədqiqat müəssisələrinin, müvafiq qurumların innovasiya-texnoloji mərkəzlərinin yaradılması, onlar üçün müasir infrastrukturun qurulması böyük əhəmiyyət kəsb edir. Xüsusən də təbii sərvətlərimizin öyrənilməsi, faydalı qazıntıların aşkara çıxarılması istiqamətində geoloji işləri davam etdirən qurumlar üçün müasir infrastrukturun mövcudluğu əhəmiyyətli nəticələrin əldə olunmasına birbaşa təsir göstərir. Sentyabrın 6-da Culfa şəhərində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üçün yeni kompleksin istifadəyə verilməsi, bu mənada, önəmlidir.***



Bu gün Naxçıvan Muxtar Respublikasında təbii sərvətlərdən səmərəli istifadə iqtisadi siyasətin əsas istiqamətlərindən birini təşkil edir. Bunun üçün muxtar respublika ərazisində mövcud olan mineral xammal ehtiyatlarının öyrənilməsi, tədqiqi və istifadə olunması sahəsində fəaliyyətin davam etdirilməsi üçün lazımi infrastrukturun yaradılması qarşıya yeni vəzifələr qoyur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üçün yeni binaların istifadəyə verilməsi münasibətilə keçirilən tədbirdə idarəyə bu istiqamətdə müvafiq tapşırıqlar verib: *İdarə muxtar respublika üzrə mineral-xammal bazasının resurslarının perspektiv proqnozlarını, yeraltı su ehtiyatlarının kompleks istifadəsi sxemlərini hazırlasın, nəzərdə tutulan geoloji tapşırıqların təsdiq olunan layihə-smeta sənədlərinə müvafiq surətdə ardıcıl, səmərəli, keyfiyyətli və müəyyən olunmuş müddətdə yerinə yetirilməsini təmin etsin. İdarə həmçinin yeraltı suların rejim və balans elementlərini, çirklənməsini, ehtiyatların tükənməsini, ekzogen geoloji prosesləri, seysmik və radiasiya şəraitini öyrənməli, ətraf mühitin təbii proseslərdən mühafizəsi məqsədilə monitorinqlər keçirməlidir. Faydalı qazıntı ehtiyatlarının və yeraltı suların balans və balansdankənar ehtiyatlarını, proqnoz resurslarını hesablamalı, ekspertiza və təsdiq üçün aidiyyəti üzrə təqdim etməlidir.*

Ali Məclis Sədrinin bu və digər tapşırıqlarının yerinə yetirilməsi geoloji tədqiqatlarda yeni-yeni uğurların əldə edilməsinə zəmin yaradacaqdır.

Ənənəvi enerji mənbəyi kimi karbohidrogen ehtiyatlarının məhdudluğu və ətraf mühitin çirklənməsinin qarşısının alınması dünyada alternativ və bərpaolunan enerji mənbələri hesabına istehsal olunan enerjinin həcminin artırılmasını zəruri edir. Çünki bu, istilik elektrik stansiyalarında yandırılan böyük miqdarda yanacağa qənaətlə yanaşı, ətraf mühitə atılan zərərli tullantıların miqdarını da xeyli azaldır. Qürurla deyə bilərik ki, bu gün muxtar respublikamızda enerji təhlükəsizliyinin təmin olunmasında və ekoloji problemlərin həllində alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunmasına mühüm önəm verilir. Naxçıvanın təbii potensialından istifadə etməklə alternativ enerji mənbələrinin elektrik enerjisi istehsalına cəlb olunması elektroenergetikanın gələcək inkişaf istiqamətlərində mütərəqqi dəyişikliklər etməyə imkan yaradıb. Onu da deyək ki, hazırda muxtar respublikada günəş və su elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi ümumi istehsalın 60 faizindən çoxunu təşkil edir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq sentyabrın 8-də muxtar respublikada 2 meqavat gücündə yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib.

Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Ali Məclisin Sədri deyib: ***"Günəş Elektrik Stansiyası Naxçıvan Muxtar Respublikasının sərvətidir. Eyni zamanda bu gün istifadəyə verilən 2 meqavatlıq Günəş Elektrik Stansiyası muxtar respublikanın həyatında əlamətdar hadisədir. Çünki harada enerji varsa, orada həyat var, iqtisadi inkişaf var. Günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi ucuz başa gəlir. Bu da muxtar respublikanın energetika sisteminə öz töhfəsini verəcək, Dövlət Energetika Xidmətinin gəlirləri artacaq, gələcəkdə yeni yarımstansiyalar qurulacaqdır".***

Sonra Ali Məclisin Sədri idarəetmə otağında stansiyanı işə salıb.

Ali Məclisin Sədri "Pure Energy Development" SARL Şirkətinin icraçı direktoru Mişel Kaleramiyə və şirkətin kollektivinə təşəkkür edib, muxtar respublikada alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin bundan sonra davam etdiriləcəyini bildirib, energetika sahəsində kadr hazırlığı ilə bağlı müvafiq tapşırıqlar verib.

Çağdaş dövrdə qloballaşan dünyanın çağırışlarına uyğun olaraq təhsil sisteminin yeni, daha yüksək səviyyəyə qaldırılması, təhsilin keyfiyyətinin artırılması modernləşdirmə və müasirləşdirmə yolunda uğurla irəliləyən muxtar respublikamızda başlıca hədəflərdəndir. Bu gün muxtar respublikada davamlı, dayanıqlı və rəqabətqabiliyyətli inkişafı təmin edən, insan kapitalının formalaşmasına önəm verən, insan resurslarının yetişdirilməsini və idarə edilməsini reallaşdıran təhsil sisteminin yaradılması təhsilin keyfiyyət göstəricilərinin müasir standartlara uyğunlaşdırılmasına yol açıb. Bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlər yeni perspektivlər vəd edir. Sentyabrın 11-də Naxçıvan şəhərində "İstedad-XXI əsr" hazırlıq kursları üçün yeni tədris binasının istifadəyə verilməsi də təhsilə göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Ali Məclisin Sədri "İstedad-XXI əsr" hazırlıq kurslarının yeni tədris binasının istifadəyə verilməsi münasibətilə kursun dinləyicilərini və pedaqoji kollektivi təbrik edib. Ali Məclisin Sədri dahilərin "Əgər bir ölkənin gələcəyini bilmək istəyirsənsə, onun gəncliyinə nəzər salmaq lazımdır" fikrini xatırladaraq deyib: ***"Əgər gənclik təhsilli, dünyagörüşlü və vətənpərvərdirsə, onda ölkə də inkişaf edəcək, dövlət müstəqilliyi əbədi olacaqdır. Bu mənada hər bir ölkənin inkişafı, müstəqilliyinin qorunması və etibarlı gələcəyi təhsillə bağlıdır. Təhsilə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir. Bu gün müstəqil Azərbaycanda təhsilin inkişafına xüsusi diqqət yetirilir, müasir tədrisin tələblərinə uyğun infrastruktur yaradılır, hərtərəfli biliyə malik, intellektli və vətənpərvər gənclər yetişdirilir, yaxşı oxuyan gənclər xaricdə ali təhsil almağa göndərilirlər. Eyni zamanda ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında orta, peşə, orta ixtisas, ali və akademik təhsil pillələri üzrə yeni şərait yaradılan təhsil sahəsində qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verir".***

Muxtar respublikada insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması tələbata uyğun yeni xidmət sahələrinin yaradılmasına və mövcud olanların fəaliyyətinin daha da genişləndirilməsinə imkan verir. Bu sahədə görülən işlərin davamı olaraq "Naxçıvan Avtoservis" müəssisəsi əsaslı yenidənqurmadan sonra istifadəyə verilib.

Sentyabrın 11-də Ali Məclisin Sədri "Naxçıvan Avtoservis" müəssisəsində yaradılan şəraitlə tanış olub.

Bu gün dünyanın ən böyük problemlərindən biri insanların kütləvi şəkildə kənd yaşayış məntəqələrindən şəhərlərə köçməsidir. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri var. Başlıca səbəb isə bəzi ölkələrdəki kənd yaşayış məntəqələrində sosial həyat üçün normal şəraitin olmaması, məşğulluğun təmin edilməməsidir. Bundan başqa, həmin yaşayış məntəqələrində tibb xidməti də daxil olmaqla, bir sıra xidmət sahələrinin yoxluğu, kəndləri digər yerlərlə birləşdirən yolların acınacaqlı vəziyyətdə olması da bu məsələdə əsas amillərdən biridir. Bu gün muxtar respublikamızda tamamilə başqa bir mənzərənin şahidi oluruq. Böyük əhəmiyyətə malik olan kənd mərkəzləri layihəsinin həyata keçirilməsi nəticəsində muxtar respublikamızın ən ucqar dağ kəndləri də bu gün müasirləşən yaşayış məntəqələrinə çevrilib. Nəticədə, daimi yaşamaq üçün şəhərlərə deyil, kəndlərə üz tutanların sayı hər keçən gün artmaqdadır. Burada gözəl binalar kənd sakinlərinin ixtiyarına verilib, məşğulluq təmin edilib. Müasir suvarma sistemlərinin qurulması geniş torpaq sahələrinin əkilib-becərilməsinə şərait yaradıb. Edilən güzəştlər isə insanları əkinbecərməyə həvəsləndirib. Qaz, işıq, su, rabitə problemləri çoxdan tarixdə qalıb. Kəndlərə aparan əsas və kənddaxili yollar da olduqca rahatdır.

Kəndin təmiz havası, saf suyu, ekoloji təmiz qidaları, xoş aurası, aparılan abadlıq-quruculuq işləri ilə birləşdikdə insanlar üçün bu yaşayış yerləri bir cazibə məkanına çevrilir. Sentyabrın 15-də Babək rayonunun dağlar qoynunda yerləşən Payız da bu kəndlərimizin sırasına qoşulub.

Yaşayış məntəqəsində kompleks quruculuq işləri aparılıb, yeni məktəb binası, kənd və xidmət mərkəzləri tikilib, rahat avtomobil yolu çəkilib, kənddəki qədim su dəyirmanı bərpa olunub.

Ali Məclisin Sədri Bilik Gününün – yeni tədris ilinin başlanmasının Babək rayonunun Payız kəndində müasir məktəb binasının istifadəyə verilməsi ilə qeyd olunduğunu bildirib, çıxışında deyib: ***"Təhsil qədər cəmiyyəti irəli aparan ikinci bir sahə yoxdur. Əgər təhsil inkişaf edirsə, ölkə də inkişaf edir. Bu gün inkişaf edən ölkələrin təcrübəsini nəzərdən keçirsək, görərik ki, bu ölkələrin inkişafının kökündə təhsilə göstərilən qayğı dayanır. Bu bir həqiqətdir ki, Azərbaycanda təhsilin müasir standartlara cavab verməsi ümummilli liderimiz Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti nəticəsində mümkün olmuşdur. Ümummilli liderimizin müəllifi olduğu və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilən təhsil strategiyası Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında yeni mərhələyə yüksəlmişdir".***

Bu gün muxtar respublikada mədəniyyət sahəsi də özünün yeni inkişaf dövrünü yaşayır. Bu yüksəlişin fonunda milli musiqi sənətinin inkişafı təmin olunub. Son illər Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni musiqi məktəbləri tikilib istifadəyə verilib, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazası gücləndirilib, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının və Aşıqlar Birliyinin fəaliyyəti təmin edilib. Muxtar respublikada milli musiqimizin təbliği istiqamətində də mühüm tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamından sonra Azərbaycan xalqının tarixini özündə yaşadan xalq musiqisi, yallılar, xalq rəqsləri, toy adətlərinin tədqiqi və təbliği daha geniş miqyas alıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Milli musiqi o yerdə inkişaf edir ki, onun kökü olsun. Xalq isə o zaman milli musiqisi ilə fəxr edir ki, onun musiqi sənəti qədim xalq yaradıcılığı nümunələrinə, xalq musiqisinə əsaslansın. Çünki hər bir xalqın varlığı həm də onun xalq yaradıcılığında, xalq musiqisində yaşayır. Bu gün Gəmiqaya abidələrində həkk olunan qədim yallı nümunələri milli musiqimizin minillik inkişaf tarixindən xəbər verir".***

Sentyabrın 18-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Milli Musiqi Günü münasibətilə tədbir keçirilib.

Ali Məclisin Sədri tədbirdə iştirak edib, 2017-ci il 18 sentyabr tarixli Sərəncam ilə təltif olunanlara "Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti" fəxri adının döş nişanını və vəsiqəsini təqdim edib.

Ali Məclisin Sədri konsertdən sonra səhnə arxasına keçərək ifaçılarla görüşüb, onları Milli Musiqi Günü və uğurlu çıxışlarına görə təbrik edib.

Muxtar respublikada energetiklər üçün müasir iş şəraitinin yaradılması, elektrik enerjisinin istehlakçılara dayanıqlı və keyfiyyətli çatdırılması sahəsində ardıcıl tədbirlər görülür. Elektrik şəbəkələri üçün yeni inzibati binalar tikilir, müasir yarımstansiyalar qurulur.

Sentyabrın 20-də Şahbuz Rayon Elektrik Şəbəkəsinin inzibati binası və "Şahbuz" yarımstansiyası istifadəyə verilib. Ali Məclisin Sədri açılış tədbirində iştirak edib.

Muxtar respublikada sakinlərin asudə vaxtının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Yeni parkların salınması, xidmət sahələrinin fəaliyyətə başlaması, yaşayış məntəqələrində mədəniyyət evləri və klublar üçün yeni binaların istifadəyə verilməsi, bu mənada, mühüm əhəmiyyətə malikdir. Bu gün muxtar respublikada bütün təbəqədən olan insanlar diqqət mərkəzindədir. Ahıl vətəndaşlara, təqaüdçülərə göstərilən qayğı, onların sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlər də muxtar respublika sakinləri tərəfindən minnətdarlıqla qarşılanır.

Bu tədbirlərin davamı olaraq sentyabrın 30-da – Beynəlxalq Ahıllar Günü ərəfəsində Naxçıvan şəhərində 2 nömrəli Təqaüdçülər Klubu üçün yeni bina istifadəyə verilib. Ali Məclisin Sədri tədbirdə iştirak edib.

Ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin uğurla davam etdirilməsi Naxçıvan Muxtar Respublikasında sosial islahatların əhatə dairəsini xeyli genişləndirib. Əhalinin məşğulluğunun və rahat yaşayışının təmin olunması, mənzil-məişət şəraitinin yaxşılaşdırılması muxtar respublikada həyata keçirilən sosial siyasətin və aparılan quruculuq işlərinin əsasını təşkil edir. Hər il Naxçıvan şəhərində yeni ictimai yaşayış binaları tikilərək istifadəyə verilir, mövcud çoxmənzilli yaşayış binaları yenidən qurulur. Bu tədbirlərin davamı olaraq Naxçıvan şəhərinin "İstiqlal" küçəsindəki 79 nömrəli yaşayış binasında da yenidənqurma işləri aparılıb.

Sentyabrın 30-da Ali Məclisin Sədri binada görülən işlərlə maraqlanıb, sakinlərlə görüşüb.

*Deyirlər, insanların ömrü həm də yaxşı əməlləri, gördüyü böyük işlərlə ölçülür. Bu mənada, nə qədər ki ulu öndər Heydər Əliyevin qoruyub yüksəltdiyi qədim Naxçıvan, qüdrətli Azərbaycan var, dahi şəxsiyyət də yaşayacaqdır. Bu gün muxtar respublikamızın gündəlik həyatında, strateji amallarında, görülən genişmiqyaslı işlərdə ulu öndərin dəst-xəttini gördükcə, insanların gələcəyə inamları daha da artır, onlar əzmlə çalışırlar. Qədim yurdda görülən genişmiqyaslı işlər isə müstəqil Azərbaycan dövlətinin milli maraqlarının ən yüksək səviyyədə təmin olunmasına xidmət edir. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və uzunmüddətli dövrə hesablanmış sosial-iqtisadi inkişaf strategiyasının müasir mərhələdə müvəffəqiyyətlə icra olunması isə belə deməyə əsas verir ki, muxtar respublikamız bundan sonra da yeni-yeni uğurlara imza atacaqdır.*

**Rauf KƏNGƏRLİ**

5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür

# Muxtar respublikada müəllimlərin fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb

***YUNESKO-nun qərarına əsasən 1966-cı ildən etibarən hər il oktyabrın 5-i Beynəlxalq Müəllimlər Günü kimi qeyd olunur.***

Azərbaycan xalqının milli təfəkküründə müəllim adı həmişə uca tutulmuş və bu peşə sahiblərinə böyük ehtiram göstərilmişdir. Azərbaycan müəllimləri də hər zaman ölkəmizin inkişafı və intibahı naminə fəaliyyət göstərmiş, şərəfli müəllim peşəsinə sadiq qalaraq xalqımızın maariflənməsi və tərəqqisi yolunda yorulmadan çalışmışlar.

Ümummilli liderimiz Heydər Əliyev elmin, təhsilin inkişafını, geniş dünyagörüşə malik, savadlı və intellektual gənc nəslin yetişdirilməsini dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirmişdir. Bu yolda təhsilin aparıcı qüvvəsi olan müəllimlərin fəaliyyətinə daim yüksək qiymət verən ulu öndər istər keçmiş Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində savadlı və vətənpərvər müəllimlər ordusunun yaradılması qayğısına qalmış, müəllimlərin əməkhaqları artırılmış, sosial-məişət şəraitləri yaxşılaşdırılmış, onlar ölkəmizin ziyalı təbəqəsinin aparıcı qüvvəsinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də təhsilin inkişafını dövlətin qarşısında duran ümdə vəzifə kimi qəbul edərək müəllimlərə qayğıkeş münasibət göstərir. Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə ixtisaslı müəllim kadrlarının hazırlanması, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür.

Naxçıvan Muxtar Respublikasında öz peşəsini dərindən sevən peşəkar müəllim ordusu formalaşdırılmışdır. Cəmiyyətin maariflənməsi, bilikli, vətənpərvər, çalışqan və sağlam gəncliyin yetişdirilməsi yolunda yorulmadan çalışan muxtar respublika müəllimlərinin əməyi layiqincə qiymətləndirilir, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 14 sentyabr tarixli Sərəncamı ilə bilik və bacarıqları qiymətləndirilmiş müəllimlərin əməkhaqlarının artırılması da bu sahədə görülən işlərin davamıdır. Müasir tədris şəraiti olan təhsil ocaqlarında dərs keçmək bu gün hər bir müəllimin arzusu, eyni zamanda müəllim əməyinə verilən qiymətin ifadəsidir. Naxçıvan Muxtar Respublikasında təhsilə, təhsil işçilərinə göstərilən yüksək diqqət və qayğı sayəsində son illər 200-dən artıq təhsil müəssisəsi tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Təkcə 2017-ci ildə 6 məktəb binası istifadəyə verilmişdir. Hazırda 7 məktəbin tikintisi və ya əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Muxtar respublika rəhbərinin yüksək diqqət və qayğısı ilə tikilən təhsil müəssisələri əyani vəsaitlər, ən müasir informasiya texnologiyaları, pulsuz dərslik və bədii ədəbiyyatlarla təchiz olunur. 2017-ci ilin avqust ayında ümumtəhsil məktəblərinə 145 min 949 nüsxə dərslik, 6271 nüsxə metodik vəsait, dərslərdə əyaniliyin təşkili məqsədilə məktəbəhazırlıq qrupları üçün 180 ədəd plakat verilmişdir. Ümumtəhsil məktəblərinə 38 adda 8640 nüsxə bədii ədəbiyyat paylanılmışdır. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamına əsasən təhsil müəssisələrində "Oxunması zəruri olan kitablar"dan ibarət guşələr yaradılır.




Muxtar respublikada istifadəyə verilən məktəb binalarının müasir maddi-texniki baza ilə təmin olunması da təhsil sahəsinə göstərilən dövlət qayğısının mühüm tərkib hissəsidir. Bu günədək ümumtəhsil məktəblərində 600-dən çox elektron lövhə quraşdırılmış, məktəblərimizə 4242 kompüter verilmişdir ki, onların da 3339-u internetə qoşulmuşdur. Yaradılan müasir şərait pedaqoji kollektivlərin işini xeyli asanlaşdırmaqla yanaşı, yeni təlim metodlarından istifadəyə də geniş imkanlar açmışdır.

Təhsilin inkişafına hesablanmış tədbirlər sırasında təhsil yarmarkalarının təşkilinin mühüm rolu vardır. 2005-ci ildən etibarən muxtar respublikada hər il ənənəvi olaraq keçirilən təhsil yarmarkaları gənc müəllimlərin məşğulluğunun təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Bu tədbirlərin nəticəsidir ki, ötən dövrdə təhsil yarmarkalarında iştirak edən yüzlərlə gənc müəllim muxtar respublikanın ümumtəhsil məktəblərində işlə təmin olunmuşdur. Bu il 25-26 avqust tarixlərində keçirilən növbəti təhsil yarmarkasında 254 gənc müəllim təyinat alaraq müəllim kimi fəaliyyətə başlamışdır. Dərs ili ərzində dövlətimiz tərəfindən müəyyənləşdirilmiş güzəşt və stimullaşdırıcı tədbirlərə uyğun olaraq, həmin gənc kadrların əməkhaqlarına əlavələr ödəniləcəkdir. Bununla yanaşı, bu ildən etibarən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 5 ildən artıq dağ kəndində müəllim kimi fəaliyyət göstərən pedaqoji profilli gənc kadrlar həmin kənddə qalıb fəaliyyətini davam etdirərsə, onlara ipoteka kreditinin verilməsi nəzərdə tutulmuşdur.

Hər bir müəllim üçün ən gözəl hədiyyə onun yetişdirdiyi gəncin etimadı doğrultması, layiqli vətəndaş kimi böyüməsidir. Bu gün mütərəqqi təhsil metodlarının tətbiqi müəllim zəhmətinin bəhrələrini daha da artırır, ali və orta ixtisas məktəblərinə tələbə qəbulunda uğurlu nəticələr qazanılır. 2017-ci ildə məzunlardan 1496-sı ali təhsil müəssisələrinə, 239-u müxtəlif ali hərbi və xüsusi təyinatlı ali məktəblərə, 251-i isə tam orta təhsil bazasından orta ixtisas məktəblərinə qəbul olunmuşlar.

Muxtar respublikada müəllim və pedaqoji kollektivlərin əməyi yüksək qiymətləndirilmiş, 75 müəllim "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 94 müəllim "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adlarına layiq görülmüş, 64 müəllim "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Müəllimlər gələcəyimiz olan gənclərin təhsil almasında, tərbiyə olunmasında xüsusi rol oynayır. Gələcəyimizin təməli müəllimlər tərəfindən qoyulur. Bu təməl nə qədər möhkəm qoyulsa, gələcəyimiz bir o qədər möhkəm qurulacaq, uğurlu olacaqdır".***

*Peşə bayramlarını qeyd edən muxtar respublika müəllimləri Ali Məclis Sədrinin tövsiyələrini əsas fəaliyyət istiqaməti kimi müəyyənləşdirəcək, bundan sonra da təhsilin inkişafında yorulmadan çalışacaq, vətənpərvər və bilikli gənc nəsil yetişdirəcəklər.*

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

# Müəllimlərin əməyinin yüksək qiymətləndirilməsi təhsilin inkişafına təkan verir

***Xalqının, millətinin gələcəyinə məşəl kimi işıq salan ziyalı müəllimlərin əməyi dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilir. Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müvafiq sərəncamları ilə təhsilin inkişafında xidmətlərinə görə bir qrup təhsil işçisinin təltif edilməsi müəllim əməyinə verilən dəyərin bariz nümunəsidir. Təltif olunanlar sırasında muxtar respublikada fəaliyyət göstərən bir qrup müəllimin də adının olması bizə ikiqat sevinc bəxş etdi. Həmin müəllimlərlə görüşüb, təəssüratlarını öyrəndik.***



*Cəmşid ABDULLAYEV – Azərbaycan Respublikasının Əməkdar müəllimi:* – 38 ildir ki, gözdən əlil uşaqlar üçün xüsusi ibtidai məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi işləyirəm. Bu məktəbdə dərs tədris etməyim mənim bu peşəyə olan məsuliyyətimi ikiqat artırır. Çünki cəmiyyətin həssas təbəqəsi hesab olunan fiziki imkanları məhdud uşaqların problemləri muxtar respublikamızda daim diqqət mərkəzində saxlanılır. Onların gələcək taleyi təkcə həmin uşaqların valideynlərini deyil, həm də dövlətimizi, cəmiyyətimizi yaxından düşündürür. Bu istiqamətdə həyata keçirilən tədbirlər həm onlar, həm də muxtar respublika sakinləri tərəfindən rəğbətlə qarşılanır. Belə ki, Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramının qəbul edilməsi bu təbəqədən olan uşaqların digər uşaqlarla bərabər təhsil hüquqlarının təmin olunmasına imkan yaradıb. Ən mühümü isə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi istifadəyə verilib.

Bu günlərdə əməyi qiymətləndirilən müəllimlər sırasında adımın olması məni qürurlandırır. Bundan sonra üzərimizə daha böyük məsuliyyət düşür. İnsan özünü o vaxt xoşbəxt sanır ki, başqaları üçün xeyirxah işlər görür, Vətəni, xalqı üçün yararlı bir vətəndaş olduğunu hiss edir. Buna onun əməyinin dövlət tərəfindən yüksək qiymətləndirilməsini də əlavə etsək, onda həmin müəllimin sevincinin həddi-hüdudunun olmadığını anlamaq çətin deyil. Dərs dediyim məktəbin pedaqoji kollektivi də mənim qədər sevinc hissi keçirir.



*Ruhiyyə NƏCƏFOVA – Azərbaycan Respublikasının Əməkdar müəllimi:* – Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə müəllim işləyirəm. "Azərbaycan Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülməm mənim üçün böyük xoşbəxtlikdir. Qeyd etmək istərdim ki, bu günün müəllimləri xoşbəxtdirlər ki, hərtərəfli qayğı ilə əhatə olunan təhsil sahəsində fəaliyyət göstərirlər. Bu da müəllimləri öz vəzifə borclarına məsuliyyətlə yanaşmağa, elmin sirlərini öyrətdikləri şagirdləri həm də dövlətçiliyimizə, müstəqilliyimizə məhəbbət ruhunda tərbiyələndirməyə səfərbər edir.



*Esmira MƏHƏRRƏMOVA – Azərbaycan Respublikasının Əməkdar müəllimi:* – 1981-ci ildən pedaqoji fəaliyyətlə məşğulam. Hazırda Şahbuz şəhər 1 nömrəli tam orta məktəbdə işləyirəm. Fəaliyyət göstərdiyim bu illər ərzində şagirdlərim həmişə yaxşı nəticələr əldə ediblər. Onlardan biri Prezident təqaüdünə layiq görülüb, biri isə ölkə səviyyəsində keçirilən fənn olimpiadasında ikinci yerə sahib olub. Şagirdlərimlə fəxr edirəm. İnanıram ki, onlar da gələcəkdə yiyələndikləri peşələrin öhdəsindən layiqincə gələcəklər.

Sevincimin həddi-hüdudu yoxdur, "Əməkdar müəllim" fəxri adına layiq görülmüşəm. Əməyimə, fəaliyyətimə verilən böyük dəyərə görə minnətdarlığımı bildirirəm. Bu adın çox böyük məsuliyyəti var. Ona görə də, bundan sonra da əzmlə işləyəcək, gənc nəslin dərin biliklərə yiyələnməsində, milli və mənəvi dəyərlər ruhunda tərbiyə olunmasında əlimdən gələni əsirgəməyəcəyəm.



*Lalə HÜSEYNOVA – "Tərəqqi" medallı:* – Ordubad rayonundakı Aza kənd tam orta məktəbində işləyirəm. Uzun illərdir, təhsil sahəsində fəaliyyət göstərdiyimə görə deyə bilərəm ki, bu gün Naxçıvanda bu sahənin inkişafına yüksək dövlət qayğısı göstərilir. Son illərdə regionda neçə-neçə məktəb binasının tikilməsi və ya əsaslı şəkildə təmir olunaraq istifadəyə verilməsi ölkəmizin gələcəyinə hesablanmış addımdır. Müəllimlərin əməyinin yüksək qiymətləndirilməsi də təhsilin inkişafına böyük təkan verir, onları daha da ruhlandırır.

"Tərəqqi" medalı ilə təltif olunmağımı həyatımın ən yüksək mükafatı hesab edirəm. Mənə göstərilən bu diqqət və qayğıya görə dövlətimizə minnətdarlığımı bildirirəm. Əmin edirəm ki, göstərilən etimadı doğruldacaq, əməyimə verilən bu yüksək qiymətə işimlə cavab verəcək, bundan sonra da fəaliyyət göstərdiyim təhsil ocağında əsl vətənpərvər, dövləti, xalqı, torpağını sevən intellektli gəncliyin yetişməsinə səylə çalışacağam. Təbii ki, bu vəzifələr, yaradılan şərait, göstərilən dövlət qayğısı biz müəllimlərdən böyük məsuliyyət tələb edir. Çünki bizim yetişdirdiyimiz şagirdlər müstəqil Azərbaycanın gələcəyidir.



*Mahmud CAVADOV – "Tərəqqi" medallı:* – Əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş milli təhsil strategiyası bu gün ölkəmizdə uğurla davam etdirilir. Bu siyasi xəttin layiqincə davam etdirilməsinin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasında milli təhsilimizin inkişafı üçün lazımi addımlar atılır. Regionda təhsilə göstərilən qayğını bölgələrimizdə, eləcə də Kəngərli rayonunun simasında da görmək mümkündür. Bu gün rayonumuzda yeni məktəblər tikilir, müasir təhsil üçün hər cür şərait yaradılır. Məqsəd bundan ibarətdir ki, övladlarımız yaxşı təhsil alsınlar, bilikli, savadlı, eyni zamanda vətənpərvər gənclər kimi yetişsinlər.

Biz müəllimlərin qarşımızda duran ən vacib vəzifə də gənc nəslin hərtərəfli yetişdirilməsinə çalışmaqdır. Çünki gələcək inkişafımız belə gənclərin əlində olacaq.

Bu gün müəllimlərimiz cəmiyyətimizin ən hörmətli təbəqəsidir. Dövlətimiz tərəfindən bu peşənin sahibləri daim diqqət mərkəzindədirlər. Onların əməyi lazımınca qiymətləndirilir. Elə oktyabrın 3-də ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamı ilə təhsilin inkişafında xidmətlərinə görə muxtar respublikamızın bir qrup təhsil işçisinin də təltif olunması bu qayğının əyani təzahürüdür. "Tərəqqi" medalı ilə təltif olunmağımı 39 illik pedaqoji fəaliyyətimə verilən ən böyük qiymət kimi dəyərləndirirəm və dövlətimizə minnətdarlığımı bildirirəm.

Hazırda Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbinin direktoru vəzifəsində işləyirəm. Ötən tədris ilində məktəbimiz muxtar respublikanın qabaqcıl təhsil müəssisəsi kimi uğurlu nəticələr əldə edib. Pedaqoji kollektiv olaraq çalışacağıq ki, yaradılmış şəraitdən səmərəli istifadə edərək bundan sonra da intellektual və vətənpərvər gənclər yetişdirək.



*Yeganə MUSTAFAYEVA – Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi:* – 1993-cü ildən pedaqoji fəaliyyətə başlamışam. Hazırda Naxçıvan Qızlar Liseyində çalışıram. Məktəbimizdə təhsil alan qızlar elm, bilik almaqla yanaşı, onlara milli və mənəvi dəyərlərimiz, adət-ənənələrimiz daha dərindən öyrədilir. Daha böyük nailiyyətlər əldə etmək üçün müəllimlərimiz pedaqogikanın son nailiyyətlərindən istifadəyə üstünlük verir, dünya təhsil sistemindəki yeniliklərin tədris prosesində tətbiqinə səy göstərirlər. Ən önəmlisi isə kollektiv gələcək Azərbaycan xanımlarına Möminə xatın ucalığını, Nigar, Həcər qeyrətini aşılamaq, onları bu keyfiyyətlərə sahib qadınlar kimi yetişdirmək üçün yaradılmış bütün imkanlardan istifadə edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə yüksək fəxri ada layiq görülməyimə görə qürur hissi duyuram. Əməyimizə verilən bu yüksək qiymət bizdə böyük ruh yüksəkliyi yaradır, qurub-yaratmaq əzmimizi artırır, bizi gələcəkdə daha məhsuldar fəaliyyət göstərməyə sövq edir. Bundan sonra da hərtərəfli biliyə malik gənclərin yetişməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm.

**Gülcamal TAHİROVA**
**Nail ƏSGƏROV**
**Fatma BABAYEVA**

# Təqaüdçülərin sevimli ünvanında maraqlı söhbətlər



***Muxtar respublikamızda ahıl vətəndaşların, eləcə də təqaüdçülərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün bütün imkanlardan istifadə edilir, bir çox istirahət məkanları onların ixtiyarına verilir. Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin 2 nömrəli Təqaüdçülər Klubu da pensiyaçıların, ümumiyyətlə, şəhərin yaşlı sakinlərinin sevimli istirahət mərkəzlərindən birinə çevrilib.***

Bu məkana yolu düşənlər burada ağsaqqal sözünün şirinliyini duya, səmimi söhbətlərə, duzlu-məzəli lətifələrə, dilə gətirilən şirin xatirələrə, necə deyərlər, qulaq yoldaşlığı edə bilərlər. Buraya gələnlərin bir çoxunun özlərini canlı ensiklopediya adlandırması da təsadüfi deyil. Naxçıvan şəhərinin keçmişi haqda söhbətlərini dinləməkdən doymursan. Çünki gələnlər, gedənlər, bu dünyanın pəncərəsindən baxıb köksdolusu nəfəs alanlar haqda ən dolğun məlumat bu insanlardadır. Ulu öndərimiz Heydər Əliyev belə insanlar haqda deyirdi: ***"Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğı və hörmətə layiqdirlər".***

Bu gün muxtar respublikamızda ümummilli liderimizin müəyyənləşdirdiyi siyasət uğurla davam etdirilir. Ötən günlərdə üzünü bu kluba tutan yaşlı sakinlər üçün əlamətdar hadisənin baş verməsi də bunun bariz nümunəsidir. Belə ki, bu günlərdə təqaüdçülərə böyük sevinc bəxş edilib. Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin 2 nömrəli Təqaüdçülər Klubunun binası yenidənqurmadan sonra istifadəyə verilib. Açılış mərasimində iştirak edən Ali Məclisin Sədri burada yaradılan şəraitlə maraqlanıb və təqaüdçüləri Beynəlxalq Ahıllar Günü münasibətilə təbrik edərək deyib: *"Ölkəmizdə bütün kateqoriyadan olan insanların fəaliyyəti və rahatlığı üçün lazımi şərait yaradılır. Şagirdlərin yaxşı təhsil alması üçün müasir məktəblər, həkimlərin səmərəli fəaliyyəti üçün yeni xəstəxanalar, eləcə də digər sosial obyektlər tikilərək istifadəyə verilir, insanlara hərtərəfli xidmət göstərilir. Bu gün istifadəyə verilən 2 nömrəli Təqaüdçülər Klubunda yaradılan şərait də müxtəlif yarışların keçirilməsinə, mütaliə günlərinin və kitab müzakirələrinin təşkilinə imkan verəcəkdir. Yaşlı insanlar, təqaüdçülər ölkəmizin sərvətidir. Onların keçdiyi həyat yolu gənc nəsil üçün nümunədir. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, ənənələrimiz yaşadılmalı və gənc nəslə öyrədilməlidir".*

Biz də adıçəkilən ünvandan yolumuzu salıb klubun daimi sakinləri ilə həmsöhbət olduq. Klubun direktoru Mirvasif Seyidov bizimlə söhbətində bildirdi ki, 1974-cü ildən fəaliyyət göstərən bu klubun hazırda 100 nəfər daimi üzvü vardır. Burada əlamətdar günlərdə, bayramlarda, 20 Yanvar faciəsi, Xocalı soyqırımının ildönümündə bir sıra tədbirlər təşkil edilir, bu tədbirlərdə yaşlı insanların kütləvi iştirakı təmin olunur.Təqaüdçülər üçün nəzərdə tutulan bu klub əvvəllər lazımi şəraiti olmayan binada yerləşirdi. Lakin istifadəyə verilən yeni binada asudə vaxtın səmərəli təşkili üçün bütün imkanlar var. Belə ki, bina ilə bərabər, içərisində olan hər bir avadanlıq da yenilənib. Bina istilik, su və kanalizasiya xətləri ilə təmin olunub. Təqaüdçülərin asudə vaxtlarının səmərəli təşkili üçün stolüstü oyunların və yarışların keçirilməsi, qəzet və jurnalların oxunması, kitab mütaliəsinin təmin olunması məqsədilə binada lazımi şərait yaradılıb, iş otağı, stolüstü oyun zalları, oxu zalı və bufet istifadəyə verilib. İndi bu ünvana üz tutanların sayında da artım var. Bu məkana gələnlərin arasında şahmat və dama oyunlarına maraq göstərənlər də olur, nərd oyunu üzrə ustalar da.



Burada klubun üzvləri ilə də görüşüb həmsöhbət olduq. Təqaüdçülərdən Əli Zeynalov bizimlə söhbət zamanı bildirdi ki, domino, nərd və şahmat oynayan insanlara hər yerdə rast gələ bilərsiniz. Şahmat isə intellektual oyun kimi daha çox sevilir. Burada günün istənilən saatında şahmat lövhəsi arxasında əyləşib növbəti gediş haqqında düşünənləri görmək olar. Mən də şahmatı sevdiyim üçün tez-tez yolumu bu ünvandan salıram.

Müsahibi olduğum daha bir klub üzvü Ələsgər Axundovla söhbətimiz də maraqlı məqamlarla yadda qaldı. Onun dediklərindən: "Bu klub mənə doğmadır. Hər sabah üz tutduğum bu məkanda mən qısa müddət ərzində özümə xeyli sirdaş qazanmışam. Onlarla bərabər hər gün bu ünvana gəlirik. Burada stolüstü oyunlarla vaxtımızı keçirir, xatirələrimizi paylaşır, olanlardan-keçənlərdən söhbət edirik. Kluba gəlməzdən öncə vaxtımı necə keçirəcəyimi bilmirdim. Saatlarla evdə oturur, televizora baxır, qəzet oxuyurdum. Demək olar ki, büsbütün ətrafdakı insanlarla əlaqəni kəsmişdim. Sağ olsun, yaxşı yoldaşlardan biri günlərin birində məni bu kluba gətirdi. Həmin gün çox insanla tanış oldum, köhnə dostlarla qarşılaşdım. Axşam evə qayıdanda özümü gümrah hiss edirdim.

Klubun yeni binasının istifadəyə verilməsi biz təqaüdçülərə verilən dəyərin təzahürüdür. Əvvəlki illərdə qış aylarında buraya az-az adam gələrdi. Ancaq yeni binada yaradılan şərait bundan sonra asudə vaxtımızın daha maraqlı keçəcəyini deməyə əsas verir. Klub üzvləri adından yaradılan şəraitə görə dövlətimizə minnətdaram".

Digər müsahibimiz, təqaüdçü Hüseyn Cəfərəliyev də öz fikirlərini bizimlə bölüşdü: "Hər yaş dövrünün özünəməxsus gözəlliyi var. Qocalıq elə bir yaş dövrüdür ki, bu dövrdə insanlar qayğıya, xoş münasibətə ehtiyac duyurlar. Dünyanın bəzi yerlərində yaşlı insanlar etinasızlıq halları ilə qarşılaşırlar. Ancaq Naxçıvanda ağsaqqala, ağsaqqal sözünə, öyüdünə həmişə hörmət və ehtiram olub. Bəzən buraya bizdən daha cavan insanlar da gəlir. Ancaq onlar özlərindən daha yaşlısının kluba gəldiyini görəndə ayağa qalxır, ona ehtiram göstərir, yer verirlər. Bu, Naxçıvan sakinlərinin milli adət-ənənələrə sədaqətinin göstəricisidir. Klub üçün yeni binanın istifadəyə verilməsi biz ağsaqqallara verilən dəyərin, göstərilən qayğının ifadəsidir. Burada ağsaqqallar arasında da klubla bağlı özünəməxsus qaydalar qəbul olunub, bu qaydalara hər kəs ciddiyyətlə əməl edir. Buraya gələnlər arasında siqaret çəkənlər də olmasına baxmayaraq, hər kəs bir-birinin sağlamlığına hörmətlə yanaşır, bunun üçün ayrılmış xüsusi yerdən istifadə edirlər. Bəli, biz yaşlılar bir-birimizə, ən əsası isə özümüzə hörmət etməsək, onda gənclər də bizə etinasızlıq göstərəcəklər. Ümumiyyətlə, klubun fəaliyyətindən, yaradılan şəraitdən çox razıyam və buradakı ab-hava hər kəsin ürəyincədir".

Klubun fəal üzvlərindən Əsgər Qədimov, Əli Orucov, Teymur Quluyev, Fəxrəddin Yaqubov da öz razılıqlarını bildirdilər. Dedilər ki, bu kluba ən çox qış və yay aylarında ehtiyac duyurlar. Naxçıvanın soyuq qış, isti yay günlərində bərabər söhbət etmək üçün hər kəs belə məkanlara toplaşır, vaxtını mənalı keçirir. Yaxşı ki bu məkanda indi hər cür şərait vardır.

Sonda onu da qeyd etmək istərdik ki, bu gün dünyanın bir çox inkişaf etmiş ölkələrində yaşlı nəslin nümayəndələrinin asudə vaxtlarını səmərəli keçirməsi üçün məkanlar yaradılır. Lakin diqqətçəkən məqam odur ki, həmin məkanlar pulludur. Kasıb insanlar üçün bu yerlər əlçatmaz olur. Ancaq təqdirəlayiq haldır ki, dövlətimiz tərəfindən yaradılan belə məkanlar, o cümlədən də haqqında bəhs etdiyimiz Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin 2 nömrəli Təqaüdçülər Klubu pulsuzdur. Bütün bunlar muxtar respublikamızda insan amilinə verilən önəmin təzahürüdür.

✍ **Nail ƏSGƏROV**

## *"Ən dadlı Naxçıvan şirniyyatı"* müsabiqəsi keçirilib



Naxçıvan Turizm İnformasiya Mərkəzində keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi aparatının rəhbəri Gülbuta Babayeva açaraq bildirib ki, muxtar respublikamızda xalq yaradıcılığının ən qədim sahələrindən olan mətbəx mədəniyyətinin öyrənilməsi və inkişaf etdirilməsi, təbliği, tanıdılması sahəsində əhəmiyyətli işlər görülüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 9 aprel tarixli Sərəncamı ilə yaradılan "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi ölkəmizdə bu sahənin təbliği məqsədilə fəaliyyət göstərən ilk mərkəzlərdən biridir.

Vurğulanıb ki, qədim diyarımızın mətbəx mədəniyyətinə aid, unudulmaqda olan milli mətbəx nümunələrimizi gələcək nəsillərə tanıtmaq məqsədi daşıyan belə tədbirlər davamlı olaraq keçirilir. Ali Məclis Sədrinin diqqət və qayğısı ilə 2012-ci ildə nəfis şəkildə Azərbaycan və ingilis dillərində nəşr olunan "Naxçıvan mətbəxi" kitabı diyarımızın mətbəx mədəniyyətinin qədim və zəngin tarixini öyrənmək və təbliğ etmək baxımından nadir mənbədir.

"Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin direktoru Türkay Səfərzadə çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamından sonra bu istiqamətdə mühüm tədbirlər həyata keçirilib.

Qeyd olunub ki, bu gün Naxçıvan Muxtar Respublikasında ilk dəfə olaraq "Ən dadlı Naxçıvan şirniyyatı" müsabiqəsi keçirilir. İştirakçılar tərəfindən Naxçıvan mətbəxinə xas müxtəlif növ şirniyyatlar müsabiqəyə təqdim edilib. Paxlava, şəkərbura, şəkərçörək, qovut, şirin kətə, nabat, ovma kökələr hazırlanıb.

Diqqətə çatdırılıb ki, münsiflər heyətinin qərarı ilə Kəngərli rayonunun qədim şirniyyat növü olan əyirdəyə görə Şövkət Əhmədova birinci, Ordubad paxlavasına görə Şərur rayonunun Ələkli kənd sakini Aynurə Salahova ikinci, cəvizli kökəyə görə Babək rayon sakini Həcər Musayeva üçüncü yerə layiq görülüblər. Qaliblərə diplomlar və hədiyyələr təqdim olunub.

Tədbir Naxçıvan Dövlət Uşaq Filarmoniyasının Xalq Çalğı Alətləri Ansamblının çıxışı ilə davam etdirilib.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Gənclərin muzey ekskursiyaları davam edir

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə gənclərin Hüseyn Cavidin ev-muzeyinə ekskursiyası təşkil olunub.***

Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Tahir Məmmədli çıxış edərək bildirib ki, ekskursiyanın təşkil olunmasında məqsəd gənclərin görkəmli ədibin həyat və fəaliyyəti ilə yaxından tanış olmaları, tariximizin unudulmaması və gələcək nəsillərə çatdırılmasıdır.

Sonra muzeyin bələdçisi məlumat verərək vurğulayıb ki, Hüseyn Cavidin həyat və yaradıcılığını əks etdirən fotoşəkillər, əsərlərin ilk nəşrləri, üzərində müəllifin avtoqrafı olan "İblis" və "Səyavuş" əsərlərinin nadir nüsxələri, Əziz Şərifin şəxsən üzünü köçürüb muzeyə bağışladığı məktublardan ibarət dəftər, şairin qızı Turan Cavidin hədiyyə etdiyi "Knyaz" əsərinin əlyazması da muzeydə nümayiş etdirilməkdədir.



Daha sonra gənclər Hüseyn Cavidin Xatirə Kompleksində olub, burada onları maraqlandıran suallar cavablandırılıb.

Ekskursiyada 30 nəfər gənc iştirak edib.

## Futbol birinciliyi start götürüb



Şərur Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının Gənclər Birliyinin təşkilatçılığı ilə məktəblilər arasında mini-futbol birinciliyinə start verilib.

Yarışda 16 məktəb komandası mübarizə aparır. Yarışın ilk günündə azarkeşlər beş oyuna şahidlik ediblər. Rayonun Aşağı Daşarx kənd tam orta məktəbinin komandası Siyaqut kənd tam orta məktəbinin komandasına, Çərçiboğan kənd tam orta məktəbinin komandası Şərur şəhər 1 nömrəli tam orta məktəbin komandasına, İbadulla kənd tam orta məktəbinin komandası Zeyvə kənd tam orta məktəbinin komandasına, Yengicə kənd tam orta məktəbinin komandası isə Yuxarı Daşarx kənd tam orta məktəbinin komandasına qalib gələrək növbəti mərhələyə yüksəliblər.

Birinciliyə oktyabrın 6-da yekun vurulacaq.

✍ **Ceyhun MƏMMƏDOV**

*İtmişdir*

Culfa rayonunun Ləkətağ kənd sakini Həsənov Ağa Telman oğlunun adına olan JN-122A inventar nömrəli 10603028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 789